"Maarifpərvərlik"
Azərbaycan Gənclərinin İctimai
Yardım Assosiasiyası (MAGİYA)
ictimai birliyi

"Education"
Public Support Association of
Youth of Azerbaijan
(EPSAYA) public union

Azərbaycan Respublikası, Lənkəran şəhəri, AZ 4200, Heydər Əliyev prospekti 3,
İnternet səhifəsi: www.epsaya.az, E-mail: info@epsaya.az, Telefon: (0 51) 814 44 42

# NƏQLİ HESABAT – 2022

## Təsisat tarixi

***"Maarifpərvərlik" Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi*** 31 mart 2005-ci il tarixində Lənkəran şəhərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşən yerli ziyalı gənclərin təşəbbüsü ilə yaradılmış qeyri-siyasi, könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan qeyri-hökümət təşkilatıdır.

İctimai birlik 31 may 2005-ci il tarixində Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

Birliyin fəaliyyət dairəsi Azərbaycan Respublikasının ərazisini əhatə edir.

## Məqsəd və vəzifələr

İctimai birliyin məqsədi və fəaliyyət predmeti gənclər və gənclər vasitəsi ilə ictimaiyyət arasında sosial, iqtisadi, hüquqi, ekoloji və sair istiqamətlərdə maarifləndirmə və məlumatlandırma işinin aparılmasından ibarətdir.

Birliyin vəzifələri onun məqsədini reallaşdırmaq üçün yeniyetmə və gənclər, o cümlədən geniş ictimaiyyət arasında müvafiq maarifpərvər tədbirlər sistemini (müxtəlif təlimlər və seminarlar, debatlar və klublar, dəyirmi masalar və görüşlər, dərnəklər və kurslar, konfranslar və sərgilər, xeyriyyə marafonları və digər mədəni-kütləvi tədbirlər) həyata keçirməklə cəmiyyətdə elmi-kütləvi biliklərin artmasına köməklik etməkdir.

## Təşkilati struktur

- Ümumi Yığıncaq (Ali İdaeətmə Orqanı);
- İdarə Heyyəti (İcra Orqanı);
- Prezident;
- Vitse-prezident;
- Nəzarət Təftiş Komissiyası;
- İcraçı direktor;
- Direktorlar Şurası.

## Həmtəsisçilər və üzvlük

MAGİYA ictimai birliyinin 3 həmtəsisçisi, 8 üzvü və 24 nəfər könüllüsü vardır. İctimai birliyin nümayəndələri həm respublika daxilində, həm də respublikadan kənarda (Gürcüstan, Belçika, Almaniya və s.) müxtəlif əməkdaşlıq layihələrini böyük uğurla həyata keçirir. İctimai birliyin nümayəndələri ABŞ, Belçika, Böyük Britaniya, Almaniya, Fransa, Litva, Moldaviya, Ukrayna, Türkiyə, Gürcüstan, Qazaxıstanda keçirilən müxtəlif proqramlarda çox fəal iştirak etmiş və ictimai birliyi həmin ölkələrdə layiqincə təmsil etmişlər.

İctimai birliyə üzvlük pulsuz və könüllüdür. Hər bir 16-35 yaşarası ziyalı gənc ictimai birliyə üzv ola bilər. Bundan ötrü ictimai birliyə müvafiq ərizə ilə müraciət etmək lazımdır.

***MAGİYA ictimai birliyinin həmtəsisçiləri və üzvləri***

| *№* | *Adı və soyadı* | *Vəzifəsi* | *Statusu* |
|---|---|---|---|
| 1 | A.Ə.Məlikov | Prezident | Həmtəsisçi |
| 2 | V.İ.Nəsirli | Vitse-prezident | Həmtəsisçi |
| 3 | Z.Z.Babayev | NTK-nın sədri | Həmtəsisçi |
| 4 | M.H.Qasımzadə | Vitse-prezidentin assistenti | Üzv |
| 5 | S.V.Babayev | İcraçı direktor | Üzv |
| 6 | Ş.H.Qasımzadə | Beynəlxalq əlaqələr şöbəsinin müdiri | Üzv |
| 7 | A.E.Bayramova | İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri | Üzv |
| 8 | E.Ə.Orucov | KİV-lə əlaqələr şöbəsinin müdiri | Üzv |
| 9 | E.Y.Fətullazadə | İnsan resursları şöbəsinin müdiri | Üzv |
| 10 | İ.F.Muradov | Layihələr və tədbirlər şöbəsinin müdiri | Üzv |
| 11 | R.K.Abbaszadə | Mühasibatlıq və audit şöbəsinin müdiri | Üzv |

**Qazandığı mükafatlar**

| *№* | *Məzmun* | *Titul* | *Tarix və yer* | *Təşkilat* |
|---|---|---|---|---|
| 1 | "Yerlərdə Dövlət Gənclər Siyasətini uğurla həyata keçirdiyinə görə" | Fəxri Fərman | 02 fevral 2007-ci il, Lənkəran | Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| 2 | "Rayonun ictimai-siyasi həyatındakı fəallığına görə" | Fəxri Fərman | 29 dekabr 2010-cu il, Lənkəran | Lənkəran şəhər İcra Hakimiyyəti |
| 3 | "2011-ci il ərzində göstərdiyi uğurlu fəaliyyətə görə" | Fəxri Diplom | 1 fevral 2012-ci il, Bakı | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |
| 4 | "Azərbaycan Könüllülük Xidməti" üzrə Milli Akkreditasiya Sertifikatı | Şəhadətnamə | 05 dekabr 2013-cü il, Bakı | Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası |

**Təsis etdiyi mükafatlar**

MAGİYA ictimai birliyi ***"Gənclərin inkişafı sahəsində göstərdiyi dəstəyə görə"*** 27 may 2012-ci il tarixində ***"Gənclərin Dostu"*** adlı ***Fəxri Diplom*** təsis etmişdir.

**Üzv olduğu qurumlar**

- “Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası”, 2005-ci il;
- “Uşaq hüquqları üzrə QHT Alyansı”, 2006-cı il;
- “İnsan Alverinə qarşı mübarizə üzrə QHT Koalisiyası”, 2009-cu il.

**Donorlar və Tərəfdaşlar**

- Avropa İttifaqı;
- Statoil Şirkəti;
- Uşaqların Xilası Təşkilatı;
- Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi;
- Amerika Birləşmiş Ştatlarının Milli Demokratiya İnstitutu;
- Azərbaycan Respublikasının Gənclər Fondu;
- Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi;
- Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi;
- Beynəlxalq Miqrasiya Təşkilatı;
- Birləşmiş Millətlər Təşkilatının Demokratiya Fondu;
- Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Səfirliyi;
- Almaniya Federal Xarici İşlər Nazirliyi;
- Avrasiya Əməkdaşlıq Fondu;
- Niderland Xarici İşlər Nazirliyi;
- Avropa Şurası.

**Layihələr**

| № | Layihə | Təfsilatı |
|---|---|---|
| 1 | ***Adı*** | ***“Sağlam ailə sağlam cəmiyyətin təməlidir”*** |
| | ***Məqsədi*** | Respublikada ailə, qadın, uşaq və gender məsələlərinin təbliği sahəsində gənclərin, xüsusən də, yeni ailə quran gənc ailələrin ölkə miqyasında maarifləndirilməsini və məlumatlandırılmasını təşkil etmək, habelə ailələrin dağılmasına səbəb olan müxtəlif amillərin (gənc ailələrə valideynlərin və digər qohumların yersiz müdaxilələri, boşanmalara rəvac verən aktuallığını itirmiş adətlər və s.) aradan qaldırılması istiqamətində profilaktik tədbirlər həyata keçirmək |
| | ***Məbləği*** | 8 900 manat |
| | ***Tarixi*** | 01 fevral – 30 aprel 2022-ci il |
| | ***Yeri*** | Lənkəran şəhəri |
| | ***Tərəfdaşlar*** | Lənkəran şəhər Gənclər və İdman İdarəsi, Lənkəran şəhər İcra Hakimiyyəti |
| | ***Donorlar*** | Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi |
| **№** | **Layihə** | **Təfsilatı** |
| 2 | ***Adı*** | ***“Azərbaycanda sosial hüquqların təşviqində gənc işçilərin sosial bacarıqlarının*** |

| | | |
|---|---|---|
| | | ***artırılması”*** |
| | ***Məqsədi*** | Ölkəmizdə sosial hüquqların təşviqində gənclərin mövcud bilik, bacarıq və təcrübələrini daha da inkişaf etdirmək |
| | ***Məbləği*** | 6 455 manat |
| | ***Tarixi*** | 01 iyul – 01 oktyabr 2022-ci il |
| | ***Yeri*** | Lənkəran və Bakı şəhəri |
| | ***Tərəfdaşlar*** | Lənkəran şəhər Gənclər və İdman İdarəsi, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası |
| | ***Donorlar*** | Avropa Şurası |
| **№** | **Layihə** | **Təfsilatı** |
| 3 | ***Adı*** | ***“Azərbaycanda ailə institutu: problemlər və perspektivlər”*** |
| | ***Məqsədi*** | Ölkəmizdə ailə, qadın, uşaq və gender məsələlərinin aktuallığını gündəmə gətirməklə cəmiyyətimizdə ailə dəyərlərinin təşviqi və valideyn məsuliyyətinin artırılmasının təbliği sahəsində gənclərin, xüsusilə də, gənc ailələrin ölkə miqyasında maarifləndirilməsini və məlumatlandırılmasını təşkil etmək, habelə ailələrin dağılmasına və boşanmaların artmasına səbəb olan məişət zorakılığı ilə mübarizəni gücləndirməkdən ötrü bu istiqamətdə profilaktik və preventiv tədbirlər həyata keçirmək |
| | ***Məbləği*** | 8 000 manat |
| | ***Tarixi*** | 01 sentyabr – 01 dekabr 2022-ci il |
| | ***Yeri*** | Lənkəran şəhəri |
| | ***Tərəfdaşlar*** | Lənkəran şəhər Gənclər və İdman İdarəsi, Lənkəran şəhər İcra Hakimiyyəti |
| | ***Donorlar*** | Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi |
| **№** | **Layihə** | **Təfsilatı** |
| 4 | ***Adı*** | ***“COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində gənclər və gənclər vasitəsilə əhali arasında sağlam həyat tərzinin təbliği”*** |
| | ***Məqsədi*** | COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində gəncləri və gənclər vasitəsilə ictimaiyyəti məlumatlandırmaq, onları zəruri gigiyenik vasitələr və tibbi ləvazimatlarla, habelə maarifləndirici materiallarla təmin etmək və ictimai yerlərdə sağlam həyat tərzini geniş şəkildə təbliğ etmək |
| | ***Məbləği*** | 5 826,40 (beş min səkkiz yüz iyirmi altı manat qırx qəpik) manat |
| | ***Tarixi*** | 12 sentyabr – 12 dekabr 2022-ci il |
| | ***Yeri*** | Lənkəran, Cəlilabad, Masallı və Astara rayonu |
| | ***Tərəfdaşlar*** | Lənkəran, Cəlilabad, Masallı və Astara rayon Gənclər və İdman İdarələri, Lənkəran, |

| | | |
|---|---|---|
| | | Cəlilabad, Masallı və Astara rayon İcra Hakimiyyətləri |
| | ***Donorlar*** | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |
| **№** | **Layihə** | **Təfsilatı** |
| 5 | ***Adı*** | ***"Gender əsaslı zorakılıq və məişət zorakılığına qarşı ictimai mübarizə"*** |
| | ***Məqsədi*** | Respublikamızda nikahların azalmasına, boşanmaların isə artmasına rəvac verən gender əsaslı zorakılığa və məişət zorakılığına qarşı ictimai mübarizə sahəsində gənclərin, xüsusən də, yeni ailə quran gənc ailələrin ölkə miqyasında maarifləndirilməsini və məlumatlandırılmasını təşkil etmək |
| | ***Məbləği*** | 8 500 manat |
| | ***Tarixi*** | 20 dekabr 2022-ci il – 20 mart 2023-cü il |
| | ***Yeri*** | Lənkəran şəhəri |
| | ***Tərəfdaşlar*** | Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| | ***Donorlar*** | Azərbaycan Respublikasının Gənclər Fondu |